**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin 2018- ci il 16 may tarixli Ü-012 nömrəli əmri ilə təsdiq edilmiş**

**Azərbaycan Respublikasına idxal edilən it və pişik yemləri üçün**

## BAYTARLIQ TƏLƏBLƏRİ

Azərbaycan Respublikasına idxala heyvanların yemlənməsi üçün nəzərdə tutulmuş, məhsulun ixracata tədarükü haqqında ixracatçı ölkənin dövlət baytarlıq xidmətinin icazəsinə malik və onun daimi nəzarətində olan müəssisələrdə əldə olunmuş yemlərə icazə verilir.

Yemlər heyvanların və quşların yoluxucu xəstəliklərindən azad ərazilərdən olan təzə xammaldan alınmış olmalıdır, o cümlədən:

- iribuynuzlu heyvanların süngərvari ensefalopatiyası və qoyunların skrepi – BEB-in məcəlləsinin tələblərinə uyğun olaraq ölkənin ərazisi;

- ölkə ərazisində son 3 il ərzində - donuzların Afrika taunundan, atların Afrika taunundan, dəvələrin taunundan və iribuynuzlu heyvanların taunundan;

- inzibati ərazidə son 12 ay ərzində - donuzların klassik taunundan, dabaq, qoyun və keçilərin çiçəyindən, iribuynuzlu heyvanların infeksion plevropnevmoniyasından, vezikulyar stomatitdən;

- təsərrüfatların ərazisində son 3 ay ərzində - qarayaradan, bruselyozdan, leptospirozdan, Aueski xəstəliyindən, anaerob infeksiyalardan;

Yemlərin istehsalında, BEB-in tələblərinə uyğun olaraq iribuynuzlu heyvanların süngərvari ensefalopatiyası və qoyunların skrepi xəstəliyinə görə qeyri-sağlam ölkələrdən alınmış mal əti, qoyun əti, əlavə məhsullar, ətlik və ət – sümük unu və ya digər xammaldan istifadə olunmur.

Yemlərin hazırlanması üçün xammal yalnız sallaqxana mənşəli olmalı və ixracatçı ölkənin dövlət baytarlıq xidməti tərəfindən aparılan kəsimdən sonra baytarlıq-sanitariya ekspertizasından keçməlidir.

Yemlərin tərkibində gen mühəndisliyinin üsulları və ya digər genetik cəhətdən modifikasiya edilmiş mənbələr vasitəsilə istehsal edilmiş xammal olmamalıdır.

Yemlərin tərkibində salmonella, botulizm toksini, enteropatogen və anaerob mikroflorası olmamalıdır. Ümumi bakterial çirklənmə baytarlıq sertifikatında müvafiq qeydlərin aparıldığı laboratoriya tədqiqatlarının məlumatları ilə təsdiqlənən 1 q-da 500 min m.k.-dan çox olmamalıdır.

Xammal müsbət 133 dərəcə Selsidən aşağı olmayan (Farengeytə görə 271,4 dərəcə) temperaturda 20 dəqiqə müddətində 3 bar təzyiqində ($sm^2$-ə görə 421,824 funt) və ya müəyyən edilmiş mikrobioloji standartla əlaqədar müvafiq zəmanətlər verən ixracatçı ölkənin dövlət baytarlıq xidməti tərəfindən təsdiq edilmiş alternativ termiki emal sisteminə uyğun istehsal edilmiş olmalıdır.

Nəqliyyat vasitələri ixracatçı ölkədə qəbul edilmiş qaydalara uyğun işlənilir. Tara və qablaşdırma materialı birdəfəlik istifadə üçün olmalı və gigiyenik tələblərə cavab verməlidir.

Hazırkı tələblərdə göstərilmiş şərtlərin yerinə yetirilməsi baytarlıq sertifikatları ilə tam təsdiq olunmalı, ixracatçı ölkənin dilində və ingilis dilində tərtib edilməklə dövlət baytar həkimi tərəfindən imzalanmalıdır.

Partiyala malının tədarükü məhsulların nümunələrinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən tədqiq edildikdən və qeydiyyat sənədinin alınmasından sonra həyata keçirilir.

Yemlərin Azərbaycan Respublikasına göndərilməsi üçün yükləmə yalnız idxalçı tərəfindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən icazənin alınmasından sonra mümkündür.